*Tanış olun, həmyerlimizdir*

# Əsl həkim—səmimi insan

Son illər Respublikamızın hər bir güşəsində çox saylı sosial obyektlər, məktəblər, xəstəxanalar, mədəni-maarif ocaqları, istirahət-sağlamlıq mərkəzləri tikilib istifadəyə verilir. Son on ildə xüsusən regionlarda müasir tələblərə cavab verən müalicə-diaqnostika mərkəzlərinin tikilib istifadəyə verilməsi əhalinin sağlamlığına göstərilən qayğının ən bariz nümunəsidir.



Bu da bir həqiqətdir ki, sağlamlıq ocaqlarının maddi texniki bazası nə qədər güclü olsa da xidmətin səviyyəsinin yaxşılaşdırılmasında insan amili əsas olaraq qalır. Yəni yaraşıqlı, möhtəşəm xəstəxana binası özlüyündə hər şeyi həll edə bilməz. Burada əsas söz bacarıqlı həkim, qayğıkeş tibb işçisinindir.

Bilikli, təcrübəli, öz işinə, peşəsinə yanğı ilə yanaşan həkim xəstənin xilaskarı, sevimlisi olur. Belələri bir gün qocalıq səbəbindən təbii olaraq sevimli peşələrindən cismən ayrılsalar da, həmişə xalqın nəzərində yaxşı mütəxəssis, yaxşı insan kimi qalırlar. Belə insanlardan biri də həmyerlimiz, üzün müddət Ağdaş Rayon Mərkəzi Xəstəxanasında həkim-terapevt işləmiş Bağır Alcanovdur. B. Alcanov 1940-cı ildə Qəbələ rayonunun Bum qəsəbəsində anadan olub. Atası Əhməd kişinin ən böyük arzusu oğlunu həkim görmək idi. Əslində kiçik Bağırın da arzuları atasının arzuları ilə üst-üstə düşürdü. Məhz bu arzu onu 1956-cı ildə Azərbaycan Tibb İnstituna (indiki Azərbaycan Tibb Universiteti) gətirdi. 1962-ci ildə Bağır Alcanov institutu müvəffəqiyyətlə bitirərək həkim-terapevt ixtisasına yiyələndi. O əvvəlcə Nic kənd- (indiki qəsəbə) xəstəxanasında həkim, sonra Qəmərvan kənd xəstəxanasında baş həkim işlədi.

1963 cü ildə Qutqaşın (indiki Qəbələ) rayonu ilə Ağdaş rayonu birləşərkən Bağır Alcanov irəli çəkilərək Ağdaş Rayon Mərkəzi Xəstəxanasına həkim göndərildi. 1965-ci ildə Ağdaş Rayon Mərkəzi Xəstəxanası baş həkiminin müalicə işləri üzrə müavini təyin olunub, 1981-ci ilə qədər bu vəzifədə çalışıb. Sonra isə həkim fəaliyyətinin rəsmi sonunadək həmin xəstəxananın kordiologiya şöbəsinin müdiri olub. Bağır həkim harada işləməsindən asılı olmayaraq daim peşəsinə vurğunluğu, xəstələrə qayğıkeşliyi ilə seçilib.Xəstələrin sevimlisinə çevrilib. Ağdaş rayonunda uşaqdan böyüyə qədər hamı Bağır həkimi qayğıkeş, xilaskar, peşəsinə hədsiz vurğun bir insan kimi tanıyır, təqaüddə olsa da yenə də bir çox xəstələr məsləhət üçün ona üz tutur.

Bağır Alcanovun xidmətləri yüksək qiymətləndirilib, dəfələrlə mərkəzi və yerli icra hakimiyyəti orqanlarının mükafatlarına layiq görülüb. O, həm də ziyalı səmimi və təvazökar insandır. Təqaüddə olmasına baxmayaraq rayonun ictimai işlərində fəallıq göstərir. Ağdaş Rayon Mərkəzi Xəstəxanasında keçirilən bütün tədbirlərdə fəxri qonaq kimi iştirak edir.

Bağır həkim qayğıkeş ata, mehriban ailə başçısıdır Biz də ona özünün xəstələrinə daim arzuladığı cansağlığı arzulayırıq.

**Çələbi DÖNMƏZ.**

# Müvəffəqiyyətlə

Xəbər verildiyi kimi TSC Təlim və İnkişaf Mərkəzinin təlimçiləri rayonumuzda məktəbəqədər təhsil müəssisələrinin tərbiyəçiləri üçün yeni məktəbəqədər təhsil kurikulumu üzrə təlim keçmişdir. İki mərhələdə fəaliyyət göstərən məşğələlərin ikinci mərhələsi sentyabrın 7-dən 18-dək davam etmiş və müvəffəqiyyyətlə başa çatmışdır. Məşğələyə 19 nəfər tərbiyəçi cəlb olunmuşdur. Qrupda məşğələləri təlimçi Elnarə Həsənova aparmışdır. Məşğələnin sonunda test yoxlaması keçirilməklə dinləyicilərə sertifikatlar verilmişdir.

**Emin BARATOĞLU.**

# Beynəlxalq turizm günü

Son zamanlar Qəbələ yüksək surətlə inkişaf yolundadır. Bildiyimiz kimi Qəbələdə turizmin inkişafı daha yüksək səviyyədədir. Coğrafi cəhətdən ən əlverişli məkan olan Qəbələ turistlər üçün cəlbedicidir. 27 Sentyabr Beynəlxalq turizm günü ilə əlaqədar olaraq Qəbələ rayon Tarix-diyarşünaslıq muzeyində dəyirmi masa təşkil olunmuşdur. Turizmin inkişafında Qəbələ tarix-diyarşünaslıq muzeyinin böyük əhəmiyyəti vardır. Çünki rayonumuza gələn bütün turistlər ilk olaraq muzeyimizə gəlirlər. Rayonumuz haqqında bütün məlumatları əldə edən turistlər gəzməli-görməli bütün tarixi məkanların canlı şahidi olurlar. Muzeyin direktoru Xalis Məmmədov 1970 -ci ildən qeyd olunan bu əlamətdar günün tarixi haqqında geniş məlumat verdi.

**«Qəbələ».**

# Diplomla təltif edilmişdir

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təsdiq olunmuş “Xalq Yaradıcılığı Paytaxtları” Proqramı çərçivəsində sentyabrın 22-də "Azərbaycanın milli mətbəx paytaxtı" elan edilmiş Qax şəhərində keçirilən "Ulu dad" festivalında Qəbələ rayonunun kulinarları da rayonumuza xas olan çeşidli milli mətbəx nümunələrini nümayiş etdirmişlər. Tədbirin keçirilməsinə göstərdiyi dəstəyə və fəal iştirakına görə Qəbələ Rayon İcra Hakimiyyəti və Rayon Mədəniyyət və Turizm Şöbəsi festivalın diplomu ilə təltif olunmuşdur.

**«Qəbələ».**

# Tura "Qəbələ"nin qələbəsi ilə yekun vuruldu

Topaz Premyer Liqasında V turunun bütün oyunları başa çatmışdır. Qəbələ şəhərində yekun vurulan turda UEFA Avropa Liqasında qrup mərhələsinə 1 xalla start verən “Qəbələ” komandası daxili çempionatda da uğurlu nəticə qazanmışdır. Maraqlı mübarizə şəraitində keçən oyunda komandamızın üstünlüyü hiss olunsa da stadiona toplaşan azarkeşlər qol üçün 90 dəqiqədən də artıq gözləməli oldular.- Dodoya qarşı hərəkətə görə təyin olunmuş penaltini Aleksey Qay dəqiq yerinə yetirərək oyunda hesabı açmış, komandamızı 1:0 hesabı ilə irəli çıxarmışdır.

## “Qəbələ”nin Yunanıstan klubu ilə heç-heçə oynaması Azərbaycanın UEFA reytinqindəki xal ehtiyatını artırıb

UEFA Avropa Liqası yarışlarının qrup mərhələsinin ilk turunun oyunları Azərbaycanın UEFA reytinqindəki xal ehtiyatının artmasına təsir göstərib. Ölkəmizi bu turnirdə təmsil edən “Qəbələ” komandasının Bakıda Yunanıstanın “PAOK” kollektivi ilə qarşılaşması 0:0 hesablı bərabərliklə nəticələnib.Azərbaycan hazırda reytinq siyahısında 54 ölkə arasında 26-cı pillədə qərarlaşıb.


# ELANLAR

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 may 1998-ci il tarixli 10 saylı qərarla Yengicə kənd sakini **Gülməmmədov Ələsgər Əkbər oğlunun və ailə üzvlərinin** adına verilmiş JN-0045 nömrəli (kod 40616038) olan **Torpağa Mülkiyyət hüququna dair Dövlət Aktı** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 fevral 2001-ci il tarixli 03 saylı qərarı ilə Qəbələ şəhər sakini **Şükürova Nahidə İsgəndər qızının** adına verilmiş JN-2012F №-li (kodu 40601004) olan **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyası tərəfindən 26 may 1998-ci il tarixli 10 saylı qərarla Qaradeyin kənd sakini **Məmmədova Mirvari Ərziman qızının və ailə üzvlərinin** adına verilmiş JN-027A nömrəli (kod 40610028) olan **Torpağın mülkiyyətə verilməsinə dair Şəhadətnamə** itdiyi üçün etibarsız sayılır.


## ALLAH RƏHMƏT ELƏSİN

Qəbələ Rayon İcra Hakimiyyətinin kollektivi **Ramiz** və **Abdulla Əsədovlara,** əzizləri

**NAMİQİN**

vaxtsız vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

«Qəbələ» qəzetinin kollektivi **Ramiz** və **Abdulla Əsədovlara,** əzizləri

**NAMİQİN**

vaxtsız vəfatı ilə əlaqədar kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Yeni Azərbaycan Partiyası Qəbələ Rayon Təşkilatının aparat işçiləri **Rövşən Maqsudova oğlu,** partiyanın gənc və fəal üzvü

**ELMİR MAQSUDOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir, onun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.


Redaktor
O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi:
A. C. Cəlilov.

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024)20 5-19-14.
Ümumi: (024)20 5-15-56.
e-mail: gabalanews@mail.ru

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

Qəzet «Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «E-Q» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
Tiraj 2300.

Oxucu məktubları geri qaytarılmır.